Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2022, **s. 89-95**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2022, **с. 89-95**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2022, **pp. 89-95**

UOT 78.02

Firuz Əliyev
Xalq artisti, dosent
Azərbaycan Milli Konservatoriyası
AZ 1073, Bakı ş., Ələsgər Ələkbərov 7

HACI MƏMMƏDOVUN İFAÇILIQ ÜSLUBU

Açar sözlər: *Hacı Məmmədov, xalq musiqisi, ifaçılıq, tar, muğam, janr*

Azərbaycan musiqi ifaçılığı sənətində özünün orijinal üslubu ilə seçilən görkəmli tarzənlərdən biri də Hacı Məmmədov idi. O, tar ifaçılığının qədim ənənələrini davam etdirməklə yanaşı yeni nəsil ustad ifaçıların yetişdirilməsində müstəsna xidmətləri olmuşdur. Məqalədə Hacı Məmmədovun ifaçılıq ənənələri araşdırılır, onun özünəməxsus ifaçılıq texnikası tədqiq edilmiş, tar sənətinin inkişafına verdiyi tövhələrə nəzər yetirilmişdir. Həmçinin, H.Məmmədovun ifa interpretasiyası, onun ifaçılıq sferasının fərqli xüsusiyyətləri tədqiq edilmişdir.

Ф.Алиев

СТИЛЬ ИСПОЛНЕНИЯ ГАДЖИ МАМЕДОВА

Ключевые слова: *Гаджи Мамедов, народная музыка, перформанс, тар, мугам жанр*

Гаджи Мамедов был одним из выдающихся тарзанов, отличившихся своим оригинальным стилем в азербайджанском музыкальном исполнительском искусстве. Помимо продолжения древних традиций исполнения на таре, он имел исключительные заслуги в воспитании нового поколения мастеров-исполнителей. В статье рассматриваются исполнительские традиции Гаджи Мамедова, изучалась его уникальная исполнительская техника, вклад в развитие дегтярного искусства. Также была изучена исполнительская интерпретация Г.Мамедова, различные особенности его исполнительской сферы.

F.Aliyev

PERFORMANCE STYLE OF GAJI MAMEDOV

Keywords: *Haji Mammadov, folk music, performance, tar, mugham, genre*

Haji Mammadov was one of the prominent tarzans who stood out with his original style in the art of Azerbaijani music performance. In addition to continuing the ancient traditions of tar performance, he had exceptional services in training a new generation of master performers. The article examines Haji Mammadov's performance traditions, his unique performance technique was studied, contributions to the development of tar art have been reviewed. Also, H.Mammadov's performance interpretation, different features of his performance sphere were studied.

Azərbaycan mədəniyyətinin inkişafına böyük xidmətlər göstərmiş və tar ifaçılıq sənətinə özünəməxsus tövhələr vermiş şəxsiyyətlərdən biri də görkəmli tarzən Hacı Məmmədovdur. Bildiyimiz kimi, milli musiqimizdə çox peşəkar ustad sənətkarlar olub. Lakin, Hacı Məmmədovun ifaçılığı ayrıca bir məktəbdir.

XX əsrdə Azərbaycan tar ifaçılıq sənətinin ən görkəmli nümayəndələrindən olan, Azərbaycan Respublikasının Xalq artisti Hacı Məmmədov tar ifaçılığında yeni mərhələ yaratmış, tarın va milli musiqimizin təbliğində böyük rol oynamış, tar ifaçılığını yeni və müasir çalğı üslubu ilə zənginləşdirmişdir. Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor V.Əbdülqasımov müasir tar ifaçılıq məktəbinə dair məqaləsində Hacı Məmmadovun rolunu xüsusilə vurğulamışdır: "Əsası dahi bəstəkarımız Ü.Hacıbayov tərəfindən qoyulan tar tədrisi məktəbinin yaranması (1920-ci il) yeni tarzənlar nəslinin meydana çıxmasına böyük şərait yaratmışdır. Hacı Məmmədov, Əhsan Dadaşov, Baba Salahov, Əliağa Quliyev, Habib Bayramov, Məmmədağa Muradov, Adil Gəray va sair ifaçılar 1930-70-ci illər dövründə öz ifa fəallyyətləri ilə yeni səpgili ifaçılıq məktəbi yaradırlar. Belə ki, həm notlu ifa sahəsində, həm də Azərbaycan muğam sənətinin inkişafında ifa təfsirlərilə yeni inkişaf dövrü yaratmışlar. Bizcə, onların həmin ifaları müasir tar ifaçılığıının təkamül dövrü sayılmalıdır. Çünki onlar müasir tar ifaçılıq məktəbinin əsasını qoyan sənətkarlar olmuşlar. Lakin həmin məktəbin nümayəndələrindən Xalq artisti Hacı Məmmədovun ifa məziyyətləri digərlərinə nisbətən daha mükəmməl ifaya malik olmuş va ifaçılıq sənətində sələflərindən daha çox yeniliklər yarada bilmişdir. Xüsusilə bəstəkar mahnılarının instrumental şəkildə ifası ondan sonrakı gənclərə örnək olmuşdur" (1, səh 16).

Hacı Məmmədovun musiqi təhsili olmamasına baxmayaraq böyük istedadı, zəngin musiqi duyumu, fenomenal musiqi yaddaşı, musiqiyə, xüsusilə muğam sənətinə böyük marağı sayəsində o, professional tar ifaçılığında ustad zirvələrə yüksəlmişdir. Böyük istedadı, ifa etməyi öyrənməyə olan hədsis marağı, qəlbində tar alətinə qarşı sönməz maraq və sevgisi onu tar ifaçılıq sənətinə ömürlük bağlamış, bu müqəddəs yolda ona şərəf, böyük dinləyici kütləsinin məhəbbətini qazandırmışdır.

Görkəmli tarzən Hacı Məmmədov 1920-ci il aprelin 28-də Şamaxıda anadan olmuşdur. Atasının həvəskar tar ifaçısı olması onda uşaqlıqdan bu sənətə qarşı böyük məhəbbət oyatmışdır və tar aləti Hacı Məmmədovu həmişə özünə cəlb etmişdir. Bir qədər sonralar ailəsi ilə birgə Bakıya köçmüşdür. Bakının musiqi həyatı Hacı Məmmədovun ifaçı kimi yetişməsində böyük rol oynamışdır. 1929-cu ildə əmisi onun bu alətə olan marağını duymuş və ona tar aləti hədiyyə etmişdir. Musiqi savadı olmayan Hacı Məmmədov ilk öncə radioda Qurban Pirimov, Bəhram Mansurov, Mansur Mansurov kimi görkəmli sənətkarların ifalarını dinləyərək çalınan havaları öz-özlüyümdə tarın pərdələrində axtara-axtara ifa etməyə çalışmışdır. Bir müddət ardıcıl olaraq gecə və gündüz öz üzərində işləyən tarzən kamilləşməyə başlayır.

1930-cu ildə Rəşid Əfəndiyev onu Dövlət Xalq Orkestrinin rəhbəri ilə tanış edir və orkestr üzvləri 11 yaşlı Hacı Məmmədovun tar ifasını eşidərək heyrətə gəlirlər. Bu gənc tarzənin həyatında böyük dəyişikliklərə səbəb olur. Təsadüfi deyil ki, 1930-1948-ci illərdə o, Azərbaycan Dövlət şərq orkestrində və radionun notlu xalq çalğı alətləri orkestrində ifaçı kimi çalışmışdır. Yeniyetmə yaşlarından məhz orkestrlərdə çalışmağı Hacı Məmmədovun taleyində mühüm mərhələyə çevrilərək bu sənətə dərindən yiyələnməyinə böyük təsir göstərmişdir. İlk sənət uğurlarını bu orkestrlərdə qazanmağa başlayan sənətkar bir çox görkəmli sənət xadimləri, eləcə də xanəndə və müğənnilərlə tanış olur. Orkestrdə fəaliyyət göstərən təcrübəli və tanınmış musiqiçilər gənc tarzənin istedad və bacarığını müsbət qiymətləndirir. Görkəmli musiqiçilərlə tanışlığı sayəsində musiqi savadını atrıraraq, xüsusi ilə muğamlara daha dərindən yiyələnməyə başlayır. Belə ki, gənc ifaçı paralel olaraq Qurban Pirimov, Bəhram Mansurov, Əliağa Quliyev, Adil Gəray və digər görkəmli sənətkar – tarzənlərlə ünsiyyət saxlayır və onlardan muğam sənətinin sirlərini öyrənərək müxtəlif tövsiyələr alır.

Orkestrdə çalışdığı illərdə çoxlu konsert və qastrollara gedən gənc tarzən peşəkar ifaçı kimi formalaşmağa başlayır. Xüsusilə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə həm solo ifası, həm də müğənniləri böyük məharətlə müşayiət etməsi Hacı Məmmədovu ictimaiyyətə istedadlı gənc tarzən kimi tanıdır.

Görkəmli sənətkar-tarzənlərdən sənət sirlərinə yiyələnməsinə baxmayaraq Hacı Məmmədov artıq 1930-40 cı illərdə novatorluğu ilə seçilməyə başlamışdır. Belə ki, onun ifası o illərdə yayılmış ifa üslublarından kəskinliklə fərqlənirdi. Bu fərqliliklər əsasən, muğam ifa sənətində özünü biruzə verirdi. Muğamda adları çəkilən sənətkarların ənənələrinə riayət edilsə də, özünəməxsus ifa üslubu, ştrixlər, sağ-sol əl texnikası, tembr rənqarəngliyi Hacı Məmmədov novatorluğunun göstəricisi idi. Peşəkar tar ifaçılığı sahəsində yaratdığı yeni ifa tərzi radioda çaldığı muğamlar və rəqslərdə öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, sənətkarın novator ideyaları birmənalı olaraq qarşılanmamış və onu muğamları ənənəvi yoldan çıxarmasında, tarın çalğısını korlamaqda qınamışdırlar. Lakin, onun bu yenilikləri ilə razılaşanlar da az deyildir. Məsələn: Qurban Pirimov, Mansur Mansurov, Bəhram Mansurov, Səid Rüstəmov, Adil Gəray kimi tar ifaçıları onun yeni ifa üslubunu dəstəkləmiş və hətta onun novator ifası ustad xanəndələr tərəfindən də bəyənilmişdir.

Hacı Məmmədovun istedadlı ifaçı kimi tanınmasında Moskva şəhərində (1939-cu ildə) keçirilən müsabiqənin böyük rolu olmuşdur. Burada böyük rəğbətlə qarşılanan gənc ifaçının yaradıcılığında artıq yeni bir mərhələ başlayır. Vətənə döndükdən sonra Hacı Məmmədov bu nailliyyətindən ruhlanaraq fəal şəkildə konsertlərdə iştirak edir.

O illərdə artıq gənc tarzənin uğurları bir çox görkəmli sənətkarlar tərəfindən qiymətləndirilmişdir. Bu sənətkarların içərisində dahi şəxsiyyət Üzeyir Hacıbəyli də var idi. Üzeyir bəy onun istedadını, yüksək ifalçılıq texnikasını müsbət qiymətləndirmiş və onun mütləq konservatoriya təhsilini almasını istəmişdir. 1948-ci ildə Hacı Məmmədovun Azərbaycan Dövlət Filarmoniyasına solist kimi işə qəbul olunması Üzeyir bəyin dəstəyi ilə baş tutmuşdur. Məhz bu hadisədən sonra Hacı Məmmədov peşəkar ifaçı (solist) kimi fəaliyyət göstərməyə başlamışdır.

Bildiyimiz kimi, Hacı Məmmədov ixtisasca həkim idi. Filarmoniyada çalışmağa başladığı ildə - yəni, 1948-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, tarzən fəaliyyəti ilə paralel uzun müddət həkim-cərrah, baş həkim müavini, baş həkim işləmişdi. Uzun müddət Azərbaycan musiqi sənətinin təbliği ilə yanaşı o, həm də Naxçıvan şəhər xəstəxanasında, Sumqayıtda və Bakıda insanların sağlamlığı keşiyində dayanmışdır.

Filarmoniyada solist karyerası Hacı Məmmədovun ifaçılıq yaradıcılığında ikinci mühüm mərhələni təşkil edir. Burada fəaliyyət göstərdiyi illərdə o, kamil tarzən kimi püxtələşmişdir. Bülbül, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Əbülfət Əliyev, Rəşid Behbudov, Şövkət Ələkbərova, Yaqub Məmmədov, Rübabə Muradova, Sara Qədimova kimi görkəmli sənətkarlarla ünsiyyət quraraq onları tarda müşayiət etmişdir.

F.Şuşinski Hacı Məmmədov ifaçılığına yüsək qiymət vermişdir. Məqalələrinin birində yazır: "Hacı Məmmədov özündən əvvəlki qüdrətli tar ifaçılarının məktəbini yeni və orijinal bir üslubda yaşatmışdır. Onun texnikası güclü olduğu kimi, çaldığı lirik əsərlər də həssaslıqla, ürəkdən,səmimiyyətlə səslənirdi. Hacı Məmmədov qırx ilə yaxın dövlət filarmoniyasında Azərbaycanın tanınmış xanəndə sənətkarlarını müşayiət etmişdir: Seyid Şuşinski, Zülfü Adıgözəlov, Əbülfət Əliyev, Şövkət Ələkbərova, Yaqub Məmmədov, Rübabə Muradova..... O, xanəndələri oxutdurmaqda mahir idi, xanəndə dəstəsində,trioda onun ustalığı həmkarlarını valeh edirdi. Lakin təkcə müşayiətçi kimi məharətli tarzən deyildi, həm də bənzərsiz solo çalğı

nümunələri yaratmışdır. Onun ustalığı solo tar çalğısını daha yüksəklərə qaldırmış və gənc ifaçıları öz arxasınca aparmışdır. H.Məmmədov öz tarı və mahir ifası ilə yarım əsrdən artıq bir dövrdə milli musiqi sənətinin inkişafına xidmət etmişdir" (2).

Qeyd etmək lazımdır ki, konserlərdə muğam parçaları ilə yanaşı həmçinin, Azərbaycan, Avropa və rus bəstəkarlarının əsərləri ilə çıxış etmişdir. Bu isə Hacı Məmmədovu digər klassik ustad ifaçılardan fərqləndirirdi. Bildiyimiz kimi, klassik ustad ifaçılar yalnız muğam nümunələri və xanəndələri müşayiət etməklə çıxış edirdilər. Yuxarıda qeyd etdiyimiz kimi bu cəhətdən gənc Hacı Məmmədov seçilirdi. Sənətşünas Fikrət Əbülqasımov Hacı Məmmədovun ifaçılıq sənətində varislik və yaradıcılıq məsələlərini əhatə edən araşdırmalarında yazır: "Onun ustalığı yalnız ürəklərə yol tapan musiqinin gözəlliyi deyil, çalınan əsərlərin solo tarın ifasında yeni, parlaq nümunələrinin təqdimatıdır. Hacı Məmmədov hər şeydən əvvəl, tarın böyük imkanlarının melodik düşüncələrlə üzvi vəhdətini yaratmağı bacarırdı. O, tarın sirlərinə dərindən bələd idi. Hacı Məmmədov tarın fərdi, çalğı xüsusiyyətlərini səsləndirdiyi musiqiyə ibrətamiz ustalıqla əlaqələndirirdi" (1, səh 61).

Həmçinin, tar ifaçılığında konsert repertuarına bəstəkar əsərlərini daxil olması məhz Hacı Məmmədovun adı ilə bağlıdır. Belə ki, o, ilk dəfə olaraq Azərbaycan bəstəkarlarının mahnı və romanslarını, rus xalq mahnılarını, rus bəstəkarlarının operalarından olan parçaları, intrumental pyesləri tarda böyük məharətlə geniş dinləyici kütlələrinə təqdim etmişdir.

Qeyd etdiyimiz kimi, bəstəkar mahnılarının instrumental variantı ilə ilk dəfə olaraq Hacı Məmmədov çıxış etmişdir. Məhz bu hadisədən sonra Azərbaycan musiqi mədəniyyətində yeni ənənə yaranmışdır. Sənətkarın bu ideyası nəticəsində bir çox bəstəkar mahnıları və romansları tar ilə fortepiano üçün işlənilməyə başlanılmışdır. Bu ifaçılıq ənənəsi sayəsində tar tədrisinə də bəstəkar mahnılarının ifası əlavə olunmuşdur.

Hacı Məmmədov əsasən lirik bəstəkar mahnılarını tar üçün transkripsiya edərək ifa edirdi. Buna misal olaraq Qəmbər Hüseynlinin "Ləpələr", "Ay işığında", Fikrət Əmirovun "Mən səni araram", "Kor ərəbin mahnısı", Tofiq Quliyevin "Sənə də qalmaz", "Qəmli mahnı", "Görüş" filmindən "Vals", "Axşam mahnısı", C.Cahangirovun "Ana", Səid Rüstəmovun "Oxu tar", "Getmə - getmə", "Alagöz" və başqalarını göstərə bilərik. Bu mahnıları ifa etməklə Hacı Məmmədov vokal lirikanı tara ustalıqla tətbiq etmiş və bununla da tar alətinin yeni texniki və bədii imkanlarını aşkarlamışdır.

Hacı Məmmədov həmçinin, dünya klassik bəstəkarlarının yaradıcılığına müraciət edərək Raxmaninovun "Polka", P.Çaykovskinin "Payız", "Neopolitan mahnısı", "Güllər valsı", V.Motsartın "Türk marşı", F.Şopenin "Vals", İ.Bramsın "Macar rəqsi", İ.Oginskinin "Polonez", Montinin "Çardaş", J.Bizenin "Karmen" operasından parça və s. əsərləri böyük məharətlə ifa

etmişdir. Bundan əlavə o, müasir musiqi əsərlərinin tar alətində ifa olunmasının mümkünlüyünü də sübut etmişdir. Görkəmli tar ifaçısı, istedadlı tədqiqatçı, sənətşünaslıq namizədi, dosent Afət Novruzov qeyd edir ki, "tarda xarici ölkə bəstəkarlarının not əsərlərinin ifası tarın geniş ifa imkanlarını aşkar etməklə yanaşı, tar ifaçılıq sənətinin də inkişafına güclü təsir göstərmişdir" (3, səh. 13).

Tarda virtuoz solo ifaçılığı ilə seçilən Hacı Məmmədovun daha bir nailiyyəti tar üçün yazılmış konsert janrı ilə bağlı hesab olunur. Məlumdur ki, bəstəkar Hacı Xanməmmədov "Tar ilə simfonik orkestr üçün 1 №-li konserti"ni Əhsən Dadaşov, "Tar ilə simfonik orkestr üçün 2 №-li konserti"ni Hacı Məmmədova ithaf etmişdir. Belə ki, ilk dəfə Azərbaycan Bəstəkarlar İttifaqının yubiley pleniumunda Hacı Məmmədov tərəfindən böyük professionallıqla ifa olunan bu əsər dinləyici kütlələrinin rəğbətini qazanmışdır. Əsərin qeyriadiliyi fəlsəfi lirizmlə yanaşı, kadensiya hissəsində Hacı Məmmədov tərəfindən ifa edilən muğam-improvizasiyadan ibarət idi.

Hacı Məmmədovun yaradıcılığında muğam ifası nəhəng zirvəni təşkil edir. Bu sənət incilərinin də içərisində "Orta Mahur"un və "Çoban bayatı"nın öz xüsusi çəkisi var. Hacı Məmmədov muğamları çox böyük ifaçılıq texnikası ilə ifa edən, özündən əvvəl yaşayıb yaratmış tarzənləri təkrarlamayan və bununla yeni muğam ifaçılıq məktəbi yaradan virtuoz ifaçı kimi şöhrət qazanmışdır. Sənətşünaslıq doktoru, professor Əhməd İsazadə Hacı Məmmədova həsr etdiyi "Mahir tarzən" məqaləsində sənətkarın müasir tar ifaçılığının əsasını qoyduğunu qeyd etmiş, xüsusilə Hacı Məmmədovun muğamları yeni təfsirdə ifa etdiyini vurğulamış və tarı geniş imkanlı alət kimi təbliğ etməsini müsbət qiymətləndirmişdir. Əhməd İsazadənin fikrincə, "Hacı Məmmədovun sənətkarlığı Azərbaycan tar ifaçılığının yeni nəsli, yeni ənənəsi, yeni ifa üslubu və yeni məktəbi deməkdir" (4).

Bu gün "Qızıl Fond"da Hacı Məmmədovun özünəməxsus tərzdə, üslubda ifa etdiyi "Zabul Segah", "Bayatı-Şiraz", "Şur", "Çahargah", "Orta Mahur" və başqa muğamlar qorunur.

Həmçinin, Hacı Məmmədov bir çox xarici ölkələrdə Azərbaycan mədəniyyətini ləyaqətlə təmsil etmişdir. 1967-ci ildə Moskvada çıxışı böyük alqışlarla qarşılanmışdır. Burada orkestrlə birlikdə ifa etdiyi "Tar ilə simfonik orkestr üçün 2 №-li konserti"ndə əlvan tembr boyaları yaratması, polifonik elementlərlə tarın melodik xəttini eşitdirməsi, solo alətin özünəməxsus səslənməsi və bədii ifadəsini yarada bilməsi Moskva mütəxəssislərini heyran etmişdir. Bunda əlavə o, Belçika, Polşa, Macarıstan, Bolqarıstan, Almaniya, Türkiyə, İran, Suriya, Misir, Əlcəzair, Hindistan və başqa ölkələrdə qastrol səfərlərində olmuşdur. Məhz bu xidmətləri sayəsində Hacı Məmmədov Xalq artisti adına layiq görülmüş və "Şərəf" nişanı ordeni və SSRİ Ali Sovetinin Fəxri Fərmanı ilə təktif olunmuşdur.

Qeyd etmək lazımdır ki, Hacı Məmmədovun ifaçılıq üslubu Azərbaycan tar ifaçılıq sənətinə yeni mərhələ gətirməklə yanaşı, sonrakı nəsillərə də sirayət etmişdir. Belə ki, sənətkarın üslubu, ifaçılıq ənənələri Ramiz Quliyev, Ağasəlim Abdullayev, Möhlət Müslümov, Vamiq Məmmədəliyev kimi ustad ifaçılarımızın ifasında bu gün də yaşamaqda və davam etdirilməkdədir.

ƏDƏBİYYAT

1. Əbdülqasımov V. Müasir tar ifaçılıq məktəbi. // "Müasir tar ifaçılıq sənəti" Elmi – praktik konfransın materialları. B.: 2001
2. Şuşinski F.M. Qüdrətli sənətkar. (Hacı Məmmədov). "Azərbaycan Gəncləri" qəzeti. 1986, iyun.
3. Novruzov A. Tarın ifaçılıq xüsusiyyətlərinin təkamülündə xarici və Azərbaycan bəstəkarları əsərlərinin rolu. Avtoreferat. B.: 2002
4. İsazadə Ə. Mahir Tarzən. (Hacı Məmmədov). "Ədəbiyyat və İncəsənət", 1990, 2 noyabr.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.10.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 03.11.2022
Məqalənin çapa qəbul olunma tarixi: 10.11.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.